# Təbrik edirik!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 3 oktyabr tarixli sərəncamı ilə Qəbələ şəhər 3 saylı tam orta məktəbin müəllimi Xalidə İbrahimova "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Biz də bu münasibətlə respublikamızın qabaqcıl müəllimi X. İbrahimovanı təbrik edirik.

Xalidə müəllimə Mıxlıqovaq kəndində ziyalı ailəsində anadan olmuşdur. Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. 1987-ci ildən pedaqoji fəaliyyətlə məşğuldur. Kötüklü, Mıxlıqovaq və Yemişanlı kənd məktəblərində çalışmışdır. 1996-cı ildən Qəbələ şəhər 3 saylı tam orta məktəbinin müəllimidir. Uzun illərdir şagirdlərin ali məktəblərin qəbul imtahanlarına hazırlıq prosesində uğurla iştirak edir. Onun hazırladığı yüzlərlə şagird respublikanın müxtəlif ali məktəblərinə müvəffəqiyyətlə qəbul olunmuşdur. X. İbrahimovanın qabaqcıl iş təcrübəsi bir neçə dəfə rayon məktəbləri arasında yayılmışdır. O, 2005-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi "İlin ən yaxşı müəllimi" müsabiqəsində III yeri tutmuş və təltif olunmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Problemləri İnstitutunun nəşri, müəllifi A. H. Əliyev olan "9-cu sinifdə kimyanın tədrisi" (Bakı 2006) orta məktəb müəllimləri üçün metodiki vəsaitin hazırlanmasında X. İbrahimovanın yeni şəxsiyyət yönümlü və inkişafedici Pedaqoji texnologiyaların tətbiqi təcrübəsindən də istifadə edilmişdir.

**"Qəbələ".**

## Faktlar və rəqəmlərin dili ilə

### 2003—2013-cü illər

İqtisadiyyat 3 dəfədən çox, adambaşına düşən ümumi daxili məhsulun həcmi 7 dəfə artmış və pul ifadəsində 5800 dollara çatmışdır.

Son 5 il ərzində sənaye istehsalı 2,7 dəfə artmışdır. Bu, Azərbaycanda çox böyük sənaye potensialının yaradılmasına , sənayeləşdirmə layihələrinin icra olunmasına əyani sübutdur.

2003-cü ildən sonra qeyri-neft sektorunda ümumi daxili məhsul 2,4 dəfə artmışdır. Təkcə keçən il 117 min iş yeri açılmışdır ki, bunların 93 mini daimi iş yeridir. Bu ilin 11 ayında isə qeyri-neft sektoru 11 faiz artmışdır.

Kənd təsərrüfatı istehsalı 303 dəfə çoxalmışdır. Bununla bərabər ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılmışdır.

Regionların inkişafı ilə bağlı dövlət proqramlarının əvvəlindən bəri respublikada 1.200 min iş yeri açılmışdır. Ötən il işsizliyin səviyyəsi bir qədər də aşağı düşmüş, 5,2 faiz səviyyəsindədir. İşsizliklə bağlı yoxsulluğun səviyyəsi 6 faizə enmişdir.

Ölkəmiz rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında ilk 50-liyə daxildir, yəni 46-cı sıradadır. MDB məkanında isə birinci yerdədir

**Nadir ATAKİŞİYEV.**

# Rəqəmlər yüksəlişdən xəbər verir

Yola saldığımız 2013-cü ilin doqquz ayında ölkəmizdə sosial-iqtisadi inkişaf davam etmiş, Azərbaycan regionda lider dövlət olaraq öz mövqeyini bir qədər də möhkəmləndirilmişdir. Ölkəmizin beynəlxalq aləmə inteqrarasiya sürətlənmiş, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatındakı rolu xeyli artmışdır.

Azərbaycan iqtisadiyyatı doqquz ayda 5,4 faiz artmış, yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enmiş, işsizlik 5 faizə düşmüşdür. Dünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan İqtisadiyyatı dünya miqyasında rəqabət qabiliyyətliliyinə görə 39-cu yerdədir. Bu ilin doqquz ayında Azərbaycana 17,7 milyard dollar investisiya qoyulub ki, bunun 10,5 milyard dolları daxili, 7,2 millyard dolları isə xarici sərmayədir. Bu dövrdə valyuta ehtiyatları artıb və hazırda 49.4 millyard dollar təşkil edir. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan dünya miqyasında ön sıralardadır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra mühüm tədbirlər həyata keçirilmiş, sosial infrastruktur lahiyələr yerinə yetirilmiş, yeni istehsal münasibətləri yaradılmış, çoxlu sayda yeni sosial yönümlü obyektlər tikilmiş, geniş miqyaslı quruculuq-abadlıq işləri görülmüşdür.

Qəbələdə də sosial-iqtisadi inkişaf sürətlə artmış, geniş, yaraşıqlı asfalt yollar salınmış, turizmi inkişaf etdirmək məqsədilə çoxlu sayda yeni istirahət mərkəzləri tikilib istifadəyə verilmiş və belə obyektlərin tikintisi davam edir. Rayonun kənd və qəsəbələrinə yeni qaz xətti çəkilmiş, iqtisadiyyatın əsas sahələri olan sənaye, kənd təsərrüfatı və sosial sahələrdə bütün işlər uğurla icra olunur.

2013-cü ilin doqquz ayı ərzində iqtisadiyyatın ayrı-ayrı növləri üzrə 139.769 min manatlıq məhsul istehsal edilmişdir. İlin doqquz ayı ərzində keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı kənd təsərrüfatrında 1767 min manat, yaxud 3,9 faiz, nəqliyyatda 77 min manat, yaxud 3,2 faiz, rabitədə 66 min manat, yaxud 11,2 faiz, ticarətdə 1100 min manat, yaxud 5,1 faiz, tikintidə 1188 min manat yaxud 2,1 faiz artmışdır.

2013-ci ilin doqquz ayı ərzində adambaşına düşən ümumi məhsul buraxılışı 8 manat artaraq 1405 manata çatdırılmışdır.

Kənd təsərrüfatı sahəsində də uğurlu nəticələr əldə edilmişdir.

Rayonda keçən ilin payızında 25958 hektar sahədə payızlıq taxıl əkilmişdir. Əkilmiş taxıl sahələrinə payız - qış dövrlərində yüksək keyfiyyətli aqrotexniki qulluq göstərilmişdir.

2013-ci ilin doqquz ayı ərzində rayonun kənd təsərrüfatı əməkçiləri mal-qaranın qışdan salamat çıxarılması, əkilmiş payızlıq bitkilərin becərilməsi və yazlıq bitkilərin əkilməsi üçün aqrotexniki tədbirlərin aparılmasında öz daxili imkanlarını tam səfərbərliyə almışdır.

Rayonda mart ayının üçüncü ongünlüyündə yazlıq bitkilər əkininə başlanmış və qısa müddətdə-iyul ayının 1-i vəziyyətinə 1085 hektar sahədə kartof, 2095 hektar sahədə tərəvəz, 546 hektar sahədə çoxillik ot—yonca, 916 hektar sahədə isə birillik ot əkilmişdir. Başqa sözlə desək 4442 hektar yazlıq bitkilər əkilmişdir ki, bu da keçən ilin həmin dövrünə nisbətən 25 hektar çoxdur.

Heyvandarlıq məhsullarının istehsalı sahəsində də irəliləyiş nəzərə çarpır. 2013-cü ilin doqquz ayı ərzində keçən ilin həmin dövrünə nisbətən iribuynuzlu mal-qaranın sayı 554 baş, inək və camışların sayı 198 baş, qoyun və keçilərin sayı 606 baş, donuzların sayı 67 baş artmışdır. Həmin dövrdə ət istehsalı 223 ton, süd istehsalı 7010 ton, yumurta istehsalı 872 min ədəd çoxalmışdır.

Sənayenin inkişafı da son illər diqqət mərkəzindədir.

Qeyri-neft sektorunun inkişafı regionlarda sənayenin inkişafı, yeni emal müəssisələrinin yaradılması ilə bilavasitə bağlıdır. 2009—2013-ci illər üçün nəzərdə tutulmuş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının təsdiq olunmasında əsas məqsədlərdən biri məhz ölkənin regionlarında mövcud potensialdan səmərəli istifadə etməklə istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdan ibarətdir.

Rayonun sənayesi əsasən meyvə şirələrinin və qida məhsullarının istehsalı, elektrik enerisi və qazın bölüşdürülməsi, suyun yığılması və paylanması sahələri ilə təmsil olunmuşdur.

2013-ci ilin doqquz ayı ərzində Qəbələ rayonunda 5198,3 min manatlıq meyvə şirəsi emal edilmişdir. Emal edilmiş meyvə şirələrinin hamısı satılmışdır.

Qəbələ rayonunda 2013-ci ilin doqquz ayı ərzində istehlakçılara 7.845,1 min manatlıq məhsul satılmış və 2.747,6 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir.

2013-ci ilin doqquz ayı ərzində sənaye müəssisələrində çalışan 751 nəfərin orta aylıq nominal əmək haqqı 366 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 21,1 faiz çox deməkdir.

Tikinti sahəsinə göstərilən diqqət daha çox nəzərə çarpmaqdadır.

2013-ci ilin doqquz ayı ərzində rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 62412 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 56610 min manat təşkil etmişdir.

2013-ci ilin doqquz ayı ərzində umumi sahəsi 13.074 kv metr olan 130 fərdi ev tikilib istifadəyə verilmişdir. Həmin müddətdə hər biri 500 başlıq olan modem heyvandarlıq kompleksinin tikintisi başa çatmış, Nic qəsəbəsində 360 yerlik, Tölə kəndində 180 yerlik məktəb binası, Dövlət təhlükəsizliyininin Qəbələ şöbəsi üçün inzibati bina və Qəbələ Mədəniyyət mərkəzi üçün inzibati bina tikilib istifadəyə verilmiş, Səməd Vurğun, Nizami, Zərifə Əliyeva küçələrinin yenidən qurulması başa çatmışdır.

Qəbələ Dağ xizək kompleksinin tikintisinin birinci mərhələsi başa çatmış, ikinci mərhələnin tikintisi davam edir, Qəbələ Uşaq Futbol Akademiyasının inzibati binasının və Qəbələ Qolf kulubun tikintisinə başlanmışdır.

Mədəniyyət, turizm təhsil, səhiyyə, nəqliyyat və rabitə xidməti sahələrində də ürəkaçan nailiyyətlər əldə olunmuşdur.

Əhalinin rifah-halının yüksək olması əsasən istehlak bazarında özünü büruzə verir. 2013-ci ilin doqquz ayı ərzində rayonun istehlak bazarında əhaliyə 17.625 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 83.430 min manat olmuş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz və ya 2.885 min manat çoxdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 4,8 faiz və ya 2.611 min manat təşkil etmişdir.

2013-cü il oktyabr ayının 1-dək rayonda 11.463 yeni iş yeri açılmışdır ki, onun da 9.415-i daimi iş yerləridir. Bundan əlavə müvəqqəti və mövsümü işləri yerinə yetirmək üçün 2048 yeni iş yeri açılmışdır

Bütün bu göstəricilər əhalinin həyat şəraitinin, güzəranının davamlı artımından xəbər verir.

**RAYON STATİSTİKA İDARƏSİ.**